

*Qəşəm İsabəyli*

# İtki

(hekayə)

1.

Uşaqlıqda anam əlimdən hirslənən kimi qaynanasından çəkdiklərinin də hayıfını məndən alardı:

-Vallah, nə töküb nənən, onu da yığışdırmısan! Bir-ikisinə getməsən, halovuşun yatmayacaq!

-Məni təhqir eləmə!- Əlimi gözlərimə basıb, ağlayardım.

Böyüdüm, gözəl-göyçək qız oldum. Xasiyyətim zahirən cəlbedici deyildi deyə oğlanlar məndən yan gəzirdi. Hətta "qara pantera" qoymuşdular adımı. Ali məktəbi qurtaran kimi də ərə getdim. Əslində anamla xalamın xahiş-minnətiylə baş tutmuşdu bu izdivac. İlkimiz də qız oldu. İsinişdim deyə bilmərəm, sadəcə düşdüyüm vəziyyətə qarşı yumşaldım. İşləyirdim deyə fikrim dağılırdı. Bir gün idarəmizə təzə işçi gəldi. Uca boylu, açıq alınlı, düz baxışlı bu kişinin görkəmi ciddi olsa da, gülümsər gözləri vardı. Məndən10-15 yaş böyük görünürdü. İşlə əlaqədar tez-tez otağımıza gəlirdi. Hərdən gözumün quyruğuyca baxanda, üzümdə oğrun baxışlarını tuturdum. Qadına da nə lazımdı - diqqət. Bu cavan kişi haqqında yoldaşlarımın fikrini öyrənmək üçün bir dəfə biclik işlətdim:

-Başqa yeri yoxdu getməyə bunun, nə görüb ey, otağımızda?!

Şöbə müdirimiz - dul rus qızının dərdi açılmadımı:

-Qadının başı üstdən kişi nəfəsi əskik olmasın!

-Yad kişi?!

-Səndən ötrü yad ola bilər. Maşallah, ərin var, ürəkli yaşayırsan! Gecələr balışı qucaqlayıb tək yatanlara niyə yazığın gəlmir?!

-Bu kişidən sənə nə?!

-Hər halda gözüm ki, sevinir.

-İdarədə ondan yaxşıları da var!

-Rəhmətlik anam demişkən, mən ağzıəyrini arxasından tanıyıram. Burda, əsl kişi varsa, elə budur!

Düzü qəlbimə şübhə toxumu kimi düşdü bu sözlər.

2.

Biz qadınlar ömür boyu şirin söz aşiqi olmuşuq. Bədbəxtliyimiz də elə burdan gəlib. Onun da altını az çəkməmişk. Bilsək də yar-yaraşığımız bir şey deyil, di gəl, Allahından dönüb, bir kişi bizə ötəri nəzər sala, ya xoş söz deyə, bir həftə güzgünün qabağından çəkilmərik. Üç-dörd dəfə xörəyin dibini yandırıb, ərin qabağına it yalına oxşayan bir şey qoyub, cəzasını alandan sonra ağlımız başımıza qayıdar.

Bayaq dedim axı, qəlbimə şübhə toxumu düşmüşdü. Başladım cavan kişiylə ərimi müqayisə eləməyə. Ayaqlarına baxırdım evdəkinin, görürdüm çöp kimidi, burnuna baxırdım, ödüm ağzıma gəlirdi.

Bir gün də təzə işçi bizim otağımıza girəndə məşhur Norveç yazıçısı Knut Qamsunun "Viktoriya" əsərini tərifləməyə başladı.

-Mən də oxuyardım o kitabı! - Dedim.

Eşitmirmiş kimi cınqırını da çıxartmadı. Bu saymazlıq bərk toxundu mənə - hamısı bir bezin qırağıdı, gö-rürsən, sözümü də vecinə almır.

Səhəri günü otağının qarşısından keçəndə...

-Aygün bəyim....

Ürəyim atlandı. Dayandım:

-Buyurun.

-Buyurun, - "Viktoriya" əsərini uzatdı mənə.

Uçmağa qanadım olmadı:

-Aaa... təşəkkür edirəm, iki günə qaytaracam.

-Verdiyini almaq vərdişim yoxdu. - Dedi. - Amma aldığımı da qaytara bilmirəm.

Gülüşdük.

Elə həmin gecə əsəri oxudum. Səhəri günü fasiləyə yaxın onun otağına gəldim. Başladım kitab haqqında danışmağa. Bir də gördüm, özümdən çıxmışam, dünyanın gərdişindən, insanların sevib-sevilməyindən, mə-həbbət oyunlarından hesabat verirəm. O da gülümsər gözlərini zilləyib üzümə. Hələ bir az da uzağa getdim - bəxtimin gətirmədiyinə şübhə oyatmaq məqsədiylə:

-Bu dünyada sevib-sevilənlərin bir-birinə qovuşduğunu görməmişəm! - Dedim.

Kişilər bildiyimiz kimi də avam olmur. Əslində avam bizik - ürəyimizdə nə var, açıb qoyuruq ortalığa. Bu zəif cəhətimizdən ustalıqla da bəhrələnir onlar.

3.

Günlər ötdükcə hiss eləyirdim ki, cavan kişidən ötrü darıxıram. O da yəqin bunu duymamış deyildi. Bir gün də adəti üzrə əlimi yumağa gedərkən otağının qabağından keçəndə məni içəri dəvət elədi.

Dörd bükülü bir kağız uzatdı:

-Buyurun, zəhmət olmasa, oxuyarsınız.

Qaşlarımı çatıb, gözlərimi qıyıb, narazılıqla başımı silkələdim:

-Bu nədi?!

-Oxuyarsaınız.

Elə yanındaca açıb oxudum.

-Yox, mən həyat yoldaşıma xəyanət eləyə bilmərəm!

-Kim deyir ki...

-Bəs bu yazdıqlarınız nədi?!

-Gözəllik qarşısında heyrətim!

Ürəyim uçundu. Ailə qurandan ərimdən bir dəfə də olsun belə söz eşitməmişdim. Amma yad kişi mənim gözəlliyimi görk eləmişdi.

-Yo-ox! - Heç özüm də nə dediyimi bilmədən, kağızı cibimə qoyub, cəld otaqdan çıxdım.

Elə səhəri günü gördüm iş-işdən keçib... hara baxıram, gözüm onun qapısına zillənir, hara gedirəm, ayağım onun yanına aparır. Üz-üzə gələndə... birinci salam verir, sonra da gülümsəyib, başımı aşağı salıram. Daxili çəkişmələr özünü çox da gözlətmədi. Bir gün də dünyanın ən xoşbəxt qadını oldum. Ərdən çəkdik-lərim gəlib durdu gözlərimin qabağında. Əllərimi üzümə verib, yanıqlı-yanıqlı ağladım:

-Mən bədbəxtəm!

Təəssüflə başını yellədi.

-Bu dünyada kim xoşbəxtdi ki?!

Dönüb, heyrətlə ona baxdım:

-Siz də?!

Gözlərini qırpdı.

Bayaq yerimdən qopub üstünə atıldım:

-Can! - Deyə, - qollarımı boynuna doladım. - Kaş, səni xoşbəxt eləyə biləydim!

Qəmli-qəmli üzümə baxıb, başını yellədi:

-Çətin!

-Niyə çətin?!

-Xoşbəxtlik, bədbəxtlik insanla əkiz doğulur. Buna da tale deyirlər. Tale də damğa kimi şeydi. Kimin al-nına necə vurulsa, elə də qalır.

-Yox, inanmıram buna! Axı siz məni bir anın içində xoşbəxt elədiniz.

4.

O gündən başlayaraq hər həftə görüşərdik. Az qala hər dəfə də sevgimizin ilk işartılarını yada salardıq.

-Əvvəl-əvvəl sənə qarşı elə də rəğbətim yox idi. - Deyərdim.

-Bəs sənə münasibətimi haçan duydun? -Soruşardı.

-"Viktoriya" kitabını verəndə.

-Rəğbətin yox idisə kitabı qaytarıb vuraydın başıma.

Gülüşərdik...

İllər ötəndən sonra özüm özümlə haqq-hesab çəkirəm - xoşbəxt olmuşammı? Bəs bizim sevgi macəra-larımız xoşbəxtlik deyil, nə idi?! Məgər insan hər gün xoşbəxt olur?!

O günü öz həyatından gileylənən, taleyini qarğayan qonşumuzu sorğu-suala tutmuşam:

-Sevmisən?

-Bəli, - deyir.

-Yəqin səni də seviblər?

-Əlbəttə.

- Bəxtəvər günləriniz olmayıb heç?

-Niyə olmayıb?! O qədər?!

-İndi qarğadığın tale verib də o günləri sənə! Yenə də sevilirsən, yenə də darıxırlar səndən ötrü.

-Ətimi tökmə, sən Allah, ay qız! Sevilirəm, darıxırlar...

-Düşmənin var?

-Nə düşmən?!

-Bəs uşaqların?!

-Başına at təpib nədi?!

-Bəs onların sevgisi?!

5.

Artıq özümü arxalı hiss etməyə başlamışdım. Ərim gözlərimdə milçək qədər deyildi. Bir gün də işdən qayıdanda dolamağa başladım onu:

-Ay kişi, nə olub sənə, nə itirmisən?!

Başını dik qaldırıb, gözlərimin içinə baxdı:

-Səni!